Daha güclü Azərbaycan naminə!

# Yeni Azərbaycan Partiyası təbliğat-təşviqat kampaniyasına yüksək əhval-ruhiyyə və böyük mütəşəkkilliklə start verdi

## AĞDAŞDA YÜKSƏK SEÇKİ ƏHVAL-RUHİYYƏSİ



Fevralın 9-da Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsi Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq bu gündən seçkinin təbliğat-təşviqat kampaniyasına “Daha güclü Azərbaycan naminə!” şüarı ilə start verib.

İlk olaraq partiyanın rayon təşkilatının Gənclər Birliyinin fəallarından təşkil olunmuş qruplar tərəfindən namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş və Dairə Seçki Komissiyası tərəfindən qeydə alınmış Cavid Osmanovun şəkli əks olunmuş plakatları 90 saylı Ağdaş seçki dairəsinin əhatə etdiyi 40 seçki məntəqəsinin ərazisində qurulmuş təşviqat lövhələrinə vurulub. Bu kampaniya rayon ərazisində səhər saatlarında uğurla başa çatıb.

Qeyd edək ki, tərtib olunmuş qrafikə uyğun olaraq rayon seçiciləri ilə görüşlər keçiriləcək.

✍ **Orxan Vahidoğlu,**
***“İki sahil”***

## MASALLIDA TƏBLİĞAT-TƏŞVİQAT KAMPANİYASINA BAŞLANILIB



Fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Masallı rayon şöbəsi Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq yanvarın 17-dən seçkinin təbliğat-təşviqat kampaniyasına start verib. Ötən gün səhər saatlarından başlayaraq təşkilatın Gənclər Birliyinin fəallarından və təbliğat-təşviqat üzvlərindən təşkil olunmuş qruplar tərəfindən namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Məmmədov Məşhur Şahbaz oğlu və İsgəndərov Anar Camal oğlunun seçki plakatları 70 və 71 saylı Seçki Dairələrinin əhatə etdiyi məntəqələrin ərazilərində quraşdırılan təşviqat lövhələrinə yerləşdirilib.

Qeyd edək ki, Seçki Məcəlləsinin 72.3, 74.1.2, 74.1.4, 75.2 maddələrinə əsasən, namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinin seçkiqabağı təşviqat aparması səsvermə gününə 23 gün qalmış başlanır, səsverməyə 24 saat qalmış dayandırılır. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar bu müddət 2020-ci il yanvarın 17-dən fevralın 8-i saat 20:00-a qədər olan dövrü əhatə edir.

✍ **Taleh Bağırov,**
***“İki sahil”***

## SƏBAİLDƏ RAYON SEÇİCİLƏRİ İLƏ GÖRÜŞLƏR



Yanvarın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı tərəfindən partiyanın deputatlığa irəli sürülmüş namizədinin təbliğat-təşviqat kampaniyasına start verilib.

Belə ki, fevralın 9-da keçiriləcək VI çağırış Milli Məclis seçkiləri ilə əlaqədar ötən gün Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsində seçki qanunvericiliyinə uyğun olaraq partiya tərəfindən 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Aytən Hüseynovanın təşviqat kampaniyasına başlanılıb.

Partiyanın gənc fəallarından təşkil olunmuş bir neçə komanda səhər saatlarında Milli Məclis seçkiləri ilə bağlı təşviqat materiallarını 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri üzrə ümumilikdə 40 seçki məntəqəsinin ərazisində quraşdırılmış təşviqat lövhələrinə vurmağa başlayıblar.

Həmçinin tərtib olunmuş təbliğat-təşviqat qrafikinə uyğun olaraq 18 yanvar tarixindən başlayaraq rayon seçiciləri ilə görüşlər keçiriləcəkdir.

✍ **Cavid Əkbərov, *“İki sahil”***

*Elnur Allahverdiyev:*

## Gücümü, imkanlarımı, potensialımı səfərbər etməklə, etimadınızı doğrultmağa çalışacağam

*YAP Mərkəzi Seçki Qərargahının Yasamal rayon şöbəsində Milli Məclisə deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülən, 17 saylı Yasamal III Seçki Dairəsində qeydə alınan Elnur Allahverdiyevin seçiciləri ilə görüşü keçirildi*








Seçki Məcəlləsində nəzərdə tutulan mərhələlər üzrə keçirilən bütün siyasi kampaniyalar kimi, Milli Məclisə növbədənkənar seçkilərin şəffaf, mütəşəkkilliklə başa çatması üçün yaradılan demokratik şərait daha da təkmilləşdirilmiş, hazırlıq kampaniyasında seçici fəallığı yüksək olmuşdur.

Seçki Məcəlləsinə uyğun olaraq 17 yanvardan etibarən namizədlərin təbliğat-təşviqat kampaniyasına start verilmişdir. Bütün siyasi kampaniyalarda vahid siyasi qüvvə kimi iştirak edən, seçicilərlə görüşə “Daha güclü Azərbaycan naminə” devizi ilə gələn Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərin mühüm mərhələsi olan təbliğat kampaniyasına da qələbə əzmi ilə başlayır.

YAP Mərkəzi Seçki Qərargahının Yasamal rayon şöbəsində Milli Məclisə deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Elnur Allahverdiyevlə seçicilərin görüşü keçirildi.







YAP-ın səlahiyyətli nümayəndəsi, partiyanın Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov deputatlığa namizəd Elnur Marat oğlu Allahverdiyev barədə seçicilərə məlumat verdi. Bildirildi ki, Bakıda ziyalı ailəsində dünyaya gələn, Azərbaycan Beynəlxalq Universitetinin hüquqşünaslıq fakültəsini bitirən, Azərbaycan Dövlət İqtisad Universitetinin “İqtisadiyyatın hüquqi tənzimlənməsi” ixtisası üzrə ikinci ali təhsil alan Elnur Silahlı Qüvvələrdə hərbi xidmətini başa vurub. Sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq, 2001-ci ildən “ABC-Telecom” MMC-də baş direktor vəzifəsində çalışır. 2014-cü ildən Sloveniya Respublikasının Azərbaycanda Fəxri konsuludur. 2017-ci ildə Heydər Əliyev Mərkəzində direktorun müşaviri vəzifəsinə təyin olunub. “Azersell Telekom” MMC-nin İdarə Heyətinin üzvüdür.

Deputatlığa namizəd seçiciləri ilə görüşə “Hədəflər: Yeniləşən və gəncləşən Azərbaycan” şüarı ilə gələn Elnur Allahverdiyev platformasında qeyd olunan vəzifələrdən ətraflı danışdı. Ölkədə aparılan köklü islahatların qüdrətli Azərbaycan naminə həyata keçirildiyini qeyd edərək, Prezident İlham Əliyevin düşünülmüş siyasətinin uğurlarından, ÜDM-də payı artan özəl sektorun inkişafına, sahibkarlara göstərilən maddi-mənəvi dəstəkdən söz açaraq Azərbaycanın dünyada 20 islahatçı ölkə arasında yer almasını bu diqqətin ifadəsi adlandırdı.

“Mənim üçün çox sevindiricidir ki, namizədliyim ulu öndər Heydər Əliyevin yaratdığı, Prezident İlham Əliyevin Sədri olduğu, milyonların partiyası kimi gəncləşən Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülüb. Seçicilərimlə görüşə platformamda nəzərdə tutulan vədlərimin reallaşması üçün Sizin rəy və təkliflərinizi öyrənməyə gəlmişəm” söyləyən Elnur Allahverdiyev ölkədə aparılan sosial islahatları yüksək dəyərləndirərək, bu sahədə gördükləri işlərdən söz açdı. Bildirdi ki, respublikada məcburi qaçqın və köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasında başçılıq etdiyi şirkətin də xidmətləri olub. Sosial layihələr çərçivəsində aztəminatlı ailələrə, kimsəsizlərə yardımlar göstərilib. Dövlət siyasətinin əsasını təşkil edən əhalinin məşğulluq səviyyəsinin artırılmasında, yoxsulluğun minimuma endirilməsində yaxından iştirak etmişik. Şirkətimizdə çalışan 1800-dən artıq müxtəlif ixtisaslı işçilər yüksək əməkhaqqı ilə təmin edilib. Ehtiyacı olanlara yardımlar göstərilib. Gənclərə diqqət və qayğı işimizin əsas istiqamətlərini təşkil edir. İnanıram ki, qələbə əzmi ilə seçkilərdə iştirak edən Yeni Azərbaycan Patiyasına inam və etimad həmişəki kimi yüksək olacaq. Partiyanın üzvü kimi etimadınızı doğruldacağam.

Seçicilər çıxış edərək Milli Məclisə deputatlığa namizədə arzu və istəklərini bildirərək, YAP-a etimad göstərəcəklərini, Prezident İlham Əliyevin siyasətini dəstəkləyəcəklərini bildirdilər.

✍ **Xuraman İsmayılqızı,**
***“İki sahil”***